*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3* *ISSN: 2663-4406*
*Səhifə: 147-157* *E-ISSN: 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4406.2024.3.147*

# XX əsr ədəbi-tarixi prosesdə Füzuli irsinə həsr olunmuş elmi nəşrlər

**Sevinc Paşayeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: seva_111@yahoo.com

**Annotasiya.** Azərbaycan ədəbi irsinin inkişafına misilsiz töhfələr bəxş edən dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli irsinin tədqiqi bütün dövrlərdə ədəbiyyatşünaslığın aktual mövzularından biri olmuşdur. "Elmsiz şeir əsassız divar olur, əsassız divar qayətdə bietibar olur", – deyərək bütün elmləri mənimsəyən, klassik ədəbiyyatşünaslıqda öz dəst-xətini yaradan Füzuli irsinin araşdırılmasına şairin öz dövründən başlanılmışdır. Əsası təzkirəçiliklə qoyulan füzulişünaslığa elmi yanaşma XIX əsrin sonu, XX əsrin əvvəllərinə təsadüf edir. Sovet dövrü Azərbaycan füzulişünaslığının banisi Mir Cəlal Paşayev, şairin həyat və yaradıcılığı haqqında ilk fundamental əsərin müəllifi isə akademik Həmid Araslıdır. Lakin XX əsrdə hakim sovet ideologiyası inkişafda olan füzulişünaslığa da öz təsirini göstərirdi.
Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan dövlətçiliyinə, tarix və mədəniyyətinin qorunmasına xüsusi önəm verən Ümummilli lider Heydər Əliyevin dahi mütəfəkkirin 500 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin edən fərmanından sonra Azərbaycan füzulişünaslığı yeni mərhələyə qədəm qoyur. Bu dövr Azərbaycan füzulişünaslığının ən məhsuldar dövrüdür. Dünya klassikləri arasında ensiklopedik biliyi, zəngin yaradıcılığı ilə seçilən şairin irsinin yeni istiqamətlər üzrə daha geniş miqyasda araşdırılması məhz bu dövrdən başlayır.
Məqalədə şairin həyat və yaradıcılığına həsr edilən elmi araşdırmalar və nəşrlər nəzərdən keçirilir.
**Açar sözlər:** Məhəmməd Füzuli, şair, təzkirə, Füzuli ili, tədqiqatlar

**Məqalə tarixçəsi:** göndərilib – 03.12.2024; qəbul edilib – 20.12.2024

# Scientific publications dedicated to Fuzuli's heritage in the literary and historical process of the 20th century

**Sevinj Pashayeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: seva_111@yahoo.com

**Abstract.** The research of the heritage of Mahammad Fuzuli, the great Azerbaijani poet and thinker who made a unique contribution to the development of Azerbaijani literary heritage has been one of the current topics of literary criticism throughout history. Fuzuli by saying "The poem without knowledge becomes a wall without a foundation, and a wall without a foundation is unreliable.", mastered all sciences and had his unique style in classical literary criticism; and his heritage was studied during his period. Fuzuli Studies was created based on tazkirism and scientific approach to Fuzuli Studies dates back to the late 19th and early 20th centuries. The founder of Azerbaijani

Fuzuli Studies of Soviet period was Mir Jalal Pashayev and the author of the first fundamental work was Hamid Arasli. But during 20th century the dominant Soviet ideology had an impact on the developing Fuzuli Studies.
After our country gained its independence, National Leader Heydar Aliyev who paid special attention to Azerbaijani statehood and preservation of its history and culture, signed a decree on holding the 500th anniversary of Mahammad Fuzuli at the state level and after this decree Azerbaijani Fuzuli studies entered the new period. This period is the most productive period of Fuzuli Studies. The poet was distinguished by his encyclopedic knowledge and rich creativity among the world classics and the extensive study of his heritage in new directions began from this period.
In the article is reviewed the scientific researches and publications dedicated to poet's life and creativity.
**Keywords**: Mahammad Fuzuli, poet, tazkire, the year of Fuzuli, researches

**Article history:** received – 03.12.2024; accepted − 20.12.2024

## Giriş / *Introduction*

Müstəqillik qazandıqdan sonra qədim tarixi ənənəyə malik Azərbaycan xalqının milli-mənəvi və mədəni dəyərlərinin qorunması və təbliği dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdir. Qədim Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan zəngin ədəbi irsin, onun görkəmli nümayəndələrinin və dahi klassiklərin yaradıcılığının daha dərindən tədqiqi və təbliği bu siyasətin mühüm tərkib hissəsini təşkil edir.

Azərbaycan ədəbi irsinin inkişafına misilsiz töhfələr bəxş edən dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli yaradıcılığının tədqiqi bütün dövrlərdə ədəbiyyatşünaslığın aktual mövzularından biri olmuşdur. Azərbaycan, fars və ərəb dillərində yazdığı möhtəşəm əsərlərlə Azərbaycan ədəbiyyatı tarixində özünə taxt quran şairin yeni-yeni tədqiqat mövzularına səbəb olan zəngin ədəbi irsi mütəmadi olaraq yeni nəşrlər və məqalələrdə öz əksini tapır.

"Elmsiz şeir əsassız divar olur, əsassız divar qayətdə bietibar olur" – deyərək bütün elmləri mənimsəyən, klassik ədəbiyyatşünaslıqda öz dəst-xətini yaradan, üç dildə tərtib etdiyi "Divan" əsərlərində dövrünün gerçəkliklərini, ilahi və dünyəvi sevgini bir filosof təhkiyəsi ilə mükəmməl təsvir edən dahi Azərbaycan şairi Məhəmməd Füzuli irsinin araşdırılması, nəşri və təbliği bütün dövrlərdə olduğu kimi, müstəqillik illərində də ədəbiyyatşünaslığın aktual mövzularından biri olmuşdur. Müstəqillik illərini Azərbaycan füzulişünaslığının ən məhsuldar dövrü kimi dəyərləndirmək olar.

Məqalədə Məhəmməd Füzulinin həyat və yaradıcılığının öyrənilməsinə həsr olunan elmi araşdırmalar və nəşrlər nəzərdən keçirilir.

## Əsas hissə / *Main part*

Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan dövlətçiliyinə, tarix və mədəniyyətinin qorunmasına xüsusi önəm verən Ümummilli lider Heydər Əliyev dahi Azərbaycan şairi Məhəmməd Füzulinin dünya mədəniyyəti və ədəbiyyatı tarixindəki mövqeyini nəzərə alaraq, Azərbaycan xalqının qədim və yüksək mədəniyyətinin bütün dünyada təbliğ və tərənnümü məqsədilə 1994-cü ildə dahi şair və mütəfəkkirin 500 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin edən sərəncam imzalamışdır.

Füzulişünaslıqda yeni mərhələyə səbəb olan bu fərmana əsasən dahi söz xiridarı Məhəmməd Füzulinin 500 illik yubileyinin beynəlxalq səviyyədə qeyd edilməsi ilə əlaqədar YUNESCO tərəfindən qərar qəbul olunmuş və 1994-cü il "Füzuli ili" elan edilmişdir.

Dünya klassikləri arasında ensiklopedik biliyi, zəngin yaradıcılığı ilə seçilən şairin irsinin yeni istiqamətlər üzrə daha geniş miqyasda araşdırılması məhz bu dövrdən başlayır. "Füzuli ili" çərçivəsində şairin irsi yeni-yeni tədqiqat mövzularına cəlb edilmiş, yerli və beynəlxalq elmi konfranslar təşkil edilmiş, yubiley tədbirləri keçirilmiş, əsərləri təkrar nəşr edilmiş, şairin yaradıcılığına həsr olunmuş yeni kitablar çap olunmuşdur.

Dünya ədəbiyyatşünaslığında füzulişünaslığın əsası şairin öz dövründə təzkirəçiliklə qoyulmuşdur. Bizə məlum olan bu yazılı ədəbiyyat nümunələrindən yalnız 12 təzkirədə şairin adına rast gəlirik. Bu təzkirələrdə Məhəmməd Füzuli haqqında verilən məlumatlar daha çox biblioqrafik xarakter daşıyır. Həmin təzkirələrdə dahi Füzulinin həyat və yaradıcılığını əks etdirən məlumatların tərcümə olunmuş mətnini görkəmli füzulişünas alim Gülşən Əliyeva-Kəngərli "Azərbaycan füzulişünaslığının təşəkkülü" monoqrafiyasında çap etdirmişdir [14].

Sonralar füzulişünaslıq müxtəlif poeziya məclislərində şairin şeirlərinə nəzirələr, təxmislər yazılmaqla, qəzəlləri şərh edilməklə davam etdirilmişdir.

Azərbaycan ədəbiyyatşünaslığında elmi füzulişünaslığın təşəkkülü XIX-XX əsrlərə təsadüf edir. Görkəmli füzulişünas M.Quluzadənin 1965-ci ildə yazdığı fikir bu gün də öz aktuallığını qoruyur: "Füzuli irsinin öyrənilməsi tarixi çox qədim olsa da, füzulişünaslıq elmi çox gəncdir" [11]. XX əsrin əvvəllərindən dahi sənətkarın zəngin irsi elmi araşdırmalara cəlb edilmiş, füzulişünaslıq elmi istiqamətdə inkişaf etməyə başlamışdır. Təkcə Azərbaycanda deyil, Türkiyə, Rusiya və bəzi Avropa ölkələrində də şairin zəngin irsi tədqiqatlara cəlb edilmiş, elmi əsərlər yazılmışdır.

XX əsrin əvvəlləri və sovet hakimiyyəti dövründə demək olar ki, klassik Azərbaycan ədəbiyyatşünaslığı ilə maraqlanan görkəmli alimlərin əksəriyyəti Füzuli dühasına müraciət etmişlər. Azərbaycan füzulişünaslığı görkəmli ədəbiyyatşünas alimlərdən Abdulla Surun "Füzuliyə bir nəzər" (1907), Firidun bəy Köçərlinin ikicildlik "Azərbaycan ədəbiyyatı tarixi" (1925-1926), Bəkir Çobanzadənin "Füzuli və onun yeri" (1925), Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli" (1958), Mir Cəlalın "Füzuli sənətkarlığı" (1958), Məmməd Cəfər Cəfərovun "Füzuli düşünür" (1959), Mirzağa Quluzadənin "Füzulinin lirikası" (1965), Fuad Qasımzadənin "Qəm karvanı, yaxud zülmətdə nur" (1968), Sabir Əliyevin "Füzulinin poetikası" (1986) və s. elmi əsərlərdə öz əksini tapmışdır. Şairin irsinin elmi-nəzəri cəhətdən araşdırılmasında xüsusi əhəmiyyət kəsb edən bu əsərlər bu gün də öz elmi dəyərini qoruyub saxlayır.

Sovet dövrü füzulişünaslığının ilk elmi-nəzəri araşdırması Mir Cəlalın "Füzulinin poetik xüsusiyyətləri" adlı namizədlik dissertasiyasıdır. Müəllif əsərdə Füzulini dövrünün ən böyük şairi olmaqla yanaşı, həm də ən böyük alimi kimi dəyərləndirir. "Füzuli öz qəzəllərində bütün keçmiş ədəbi irsin nailiyyət və zənginliklərini inkişaf etdirmiş və öz dühası ilə Azərbaycanda lirik şeir sənətinin ən yüksək nümunələrini yaratmışdır", – deyən alim Füzulinin lirikasının hər şeydən əvvəl, sevgi, məhəbbət lirikası, aşiqanə lirika olduğunu qeyd edir [28, s.29]. Əsər 1940-cı ildə akademik Həmid Araslının redaktorluğu ilə çap olunaraq elmi ictimaiyyətə təqdim edilmişdir. 1958-ci ildə şairin vəfatının 400 illiyi ərəfəsində əsər daha da təkmilləşdirilərək, "Füzuli sənətkarlığı" adı ilə yenidən çap olunmuşdur. Akademik Vasim Məmmədəliyev əsəri belə dəyərləndirir: "Mir Cəlalın "Füzuli sənətkarlığı" əsəri Füzuli yaradıcılığının bütün mahiyyətini, onun sənət idealının – eşqinin və poetik xüsusiyyətlərinin rəngarəng keyfiyyətlərini açan və bizi klassik dünyamızla bağlayan əsərdir" [28, s.11].

Akademik Həmid Araslının 1958-ci ildə çap olunan "Böyük Azərbaycan şairi Füzuli" əsəri dünya füzulişünaslığında şairin həyat və yaradıcılığını ardıcıl və sistemli şəkildə əks etdirən ilk fundamental əsərdir. Akademik Həmid Araslı uzun illər apardığı elmi araşdırmaların nəticəsi olaraq çap etdirdiyi bu əsərlə füzulişünaslığı monoqrafik səviyyəyə qaldırmışdır. Akademik İsa Həbibbəyli

bu əsəri yüksək dəyərləndirərək yazır: “Akademik Həmid Araslı “Böyük Azərbaycan şairi Füzuli” monoqrafiyası ilə ədəbiyyat tarixçiliyinə də öz möhürünü vurmuşdur. Bu kitab türk-müsəlman dünyasında Füzuli haqqında ucaldılmış ən mötəbər elmi abidədir” [5, s.8]. Həmid Araslının bu əsəri ədəbiyyatşünaslıqda füzulişünaslığın ikinci- tarixilik mərhələsinin əsası kimi dəyərləndirilir.

Azərbaycan füzulişünaslığının formalaşmasında böyük xidmətləri olan alimlərdən biri də akademik Məmməd Cəfər Cəfərovdur. Alimin 1959-cu ildə işıq üzü görən, “Füzuli düşünür” monoqrafiyası əsası 1941-ci ildə yazdığı “Füzuli sevir” məqaləsi ilə qoyulan ədəbi-tənqidi məqalələr məcmuəsidir. Akademik İsa Həbibbəyli bu əsəri Füzuli sənətinin poetikası və estetikasını özündə üzvi şəkildə birləşdirən bütöv bir sistemli elmi əsər kimi dəyərləndirir [9, s.13].

Müasir dövr Azərbaycan füzulişünaslığının inkişafında Nəsib Göyüşov, Hacı Ələmdar Mahir, Sərxan Xavəri, F.Qurbanov, Əlyar Səfərli, Möhsün Nağısoylu, Sabir Əliyev, Hacı Mail, Rafael Hüseynov, Teymur Kərimli, Aida Qasımova, Vəcihə Feyzullayeva, Ataəmi Mirzəyev, Siracəddin Qənimət, Gülşən Əliyeva-Kəngərli, Zəkulla Bayramlı, Əzizağa Nəcəfov və bir çox başqa görkəmli alimlərimizin böyük xidmətləri vardır.

Sovet hakimiyyəti dövründə B.Çobanzadə, A.Şaiq, Mir Cəlal, akademik Məmməd Cəfər Füzuli eşqini maddi və cismani zənn edərək onu sufizmdən ayırmağa çalışsalar da, akademik Fuad Qasımzadə, G.Əliyeva-Kəngərli, Nəsib Göyüşov, Sərxan Xavəri, Hacı Ələmdar Mahir kimi müasir füzulişünaslar onu orta əsrlər sufizm fəlsəfəsi baxımından araşdırmışlar.

Müstəqillik dövrü Azərbaycan füzulişünaslığı sovet dövrü füzulişünaslığı ilə müqayisədə heç bir milli ideoloji məhdudiyyətlər olmadan geniş miqyasda çox istiqamətli şəkildə inkişaf edir. Gənc nəsil ədəbiyyatşünasların da bu dühaya meyil etməsi füzulişünaslığın yeni məzmunlu elmi əsərlərlə hələ çox araşdırılacağından, dəyərli tədqiqat əsərləri yazılacağından xəbər verir.

Müstəqillik dövründə Füzuli yaradıcılığının bu istiqamətlərdə – ədəbiyyata, ədəbi-nəzəri fikrə təsiri baxımından araşdırılmasında Siracəddin Qənimət oğlunun “Məhəmməd Füzuli yaradıcılığı və türk ədəbiyyatşünaslığı: 1940-1980” [10], Zəkulla Bayramlının “Füzuli yaradıcılığı və çağdaş ədəbi-nəzəri fikir” [6], Təranə Hüseynovanın “Mühazirə və Füzuli yaradıcılığında onun yeri” [20], Əzizağa Nəcəfovun “Füzuli yaradıcılığında poetik fiqurlar” [31], Ruhəngiz Cümşüdlünün “Füzulinin ərəbcə divanı” [8], Nəzakət Məmmədlinin “Füzulinin “Leyli və Məcnun” əsərində təsəvvüf və onun bədii ifadə sistemi” [24], Nəsib Göyüşovun “Füzulinin sənət və mərifət dünyası” [19] əsərləri böyük əhəmiyyət kəsb edir.

Şairin yaradıcılığının klassik, çağdaş ədəbiyyatımıza təsirini müəyyənləşdirən əsərlərdən Nailə Mustafayevanın “XIX-XX yüzilliklərdə Məhəmməd Füzuli lirikası əsasında yazılmış təxmislər” [31], Elçin Məmmədovun “XIX əsr Azərbaycan lirikasında Füzuli ənənələri” [25], Gülşən Əliyevanın “Çağdaş Azərbaycan poeziyasında Füzuli ənənələri: 70-90-cı illər” [12], Lalə Əliquluyevanın “Məhəmməd Hadi yaradıcılığında Füzuli ənənələri” [18], Afaq Yusiflinin “Füzuli irsi və 1920-60-cı illər Azərbaycan poeziyası” [34], Ataəmi Mirzəyevin “Azərbaycan bədii tərcümə tarixində Füzuli mərhələsi” [29], Lalə Məmmədovanın “Çağdaş Azərbaycan bədii nəsrində Füzuli təsirləri” [27], Mehriban Mövlamovanın “Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuli obrazı” [30], Gülər Abdullayevanın “Şeyx Qalib yaradıcılığında Füzuli ənənələri” [2] dissertasiyaları xüsusi əhəmiyyət kəsb edir.

Füzulişünaslığın tarixi inkişafına həsr olunan əsərlərə Gülşən Əliyevanın “Azərbaycan füzulişünaslığının tarixi inkişaf mərhələləri” [13], Jalə Əliyevanın “Füzulişünaslığın təşəkkülü və inkişaf meylləri” [15], Aynurə Mahmudovanın “Füzuli ədəbi məktəbinin təşəkkülü və erkən mərhələləri” [21] dissertasiyalarını göstərmək olar.

Xatirə Yusifova “Füzulinin türk "Divan"ının nəşri problemləri” [35] adlı dissertasiyasında şairin türk Divanının Bakıda nəşri problemlərini araşdırmışdır.

Lalə Məsimova “Füzulidə və Şekspirdə eşq mövzusu” [26] adlı dissertasiyada Məhəmməd Füzulinin “Leyli və Məcnun” əsəri ilə Şekspirin “Romeo və Cülyetta” əsəri arasında tipoloji

paralellər aparmış və "ümumilikdə bu mövzunun Şərqdən Qərbə doğru yönəldiyi" qənaətinə gəlmişdir [26, s.25].

Füzulinin zəngin yaradıcılığı dilçi alimlərimizdən Şəfəq Əlibəylinin "Füzulinin farsca divanının linqvo-poetik təhlili" [17], Şəfəq Cabbarovanın "Məhəmməd Füzulinin türkdilli bədii əsərlərində semantik-üslubi vasitələr" [7], Sevinc Əliyevanın "Füzulinin türkcə "Divan"ının dilinin leksikası" [16], Aynurə Məmmədovanın "Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərində fars mənşəli sözlər" [23], İlahə Abdullayevanın "Füzulinin "Leyli və Məcnun" əsərində ərəbizmlər" [1] mövzularında araşdırmalara cəlb edilmişdir.

Vərağa Almasovun "Füzulinin yaradıcılığında dini-mənqəbəvi anlayışların yeri və bədii ifadə yolları"[4], Ceyhun Ağayevin "Məhəmməd Füzulinin "Həqiqətüs-Süəda" əsərində iman və əqidə uğrunda mübarizə"[3] əsərləri isə şairin yaradıcılığında dini motivlərin araşdırılmasına həsr edilmişdir.

Füzulişünas şair Hacı Ələmdar Mahirin "Mənim tanıdığım Füzuli" kitabı da Füzuli irsinin dini nöqteyi-nəzərdən tədqiqi baxımından qiymətli tədqiqatdır. Müəllif Firdovsi, Rudəki, Xaqani, Nizami, Sədi, Hafiz, Nəvai kimi dahi şairlərə bərabər saydığı M.Füzulini "Azərbaycan şeirinin polad təməli, türk şairlərinin babası" [22, s.9] kimi təqdim edir.

Məhəmməd Füzuli yaradıcılığı mühacirət ədəbiyyatşünaslığında da öz əksini tapmışdır. Görkəmli mühacirət ədəbiyyatşünası Səlim Rəfiq Rəfioğlunun 1942-1945-ci illərdə yazdığı "Füzuli" adlı əsər şair haqqında yazılan ilk doktorluq dissertasiyasıdır. Öz mükəmməlliyi ilə seçilən əsərdə şairin həyatı, yaradıcılığı, elmi görüşləri ilk dəfə əhatəli şəkildə tədqiq olunmuşdur. Əsərə həmçinin şairə həsr olunmuş şeirlər daxil edilmişdir. Son dövrə kimi heç yerdə çap edilmədiyi üçün diqqətdən kənarda qalmış, tədqiqatlara cəlb edilməmişdir. Əsərin makinada yığılmış 315 səhifə həcmində olan yeganə nüsxəsi İstanbul Universitetinin Türkiyyat Araşdırmaları İnstitutunun kitabxanasında (şifrə 305) saxlanılır [33].

Əsər ilk dəfə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 dekabr "2018-ci il tarixli qərarına əsasən 2019-cu ildə Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası seriyasanan III cildində yer alan əsər çap olunaraq elmi ictimaiyyətə təqdim edilmişdir. Əsəri əlyazma əsasında çapa hazırlayan institutun Füzulişünaslıq sektorunun müdiri f.e.d. Ataəmi Mirzəyev, məsul redaktoru f.e.d. Nikpur Cabbarlıdır.

Füzulişünaslıq yalnız araşdırmalarla deyil, müstəqilliyimizin ilk günlərindən şairin irsinə göstərilən maraq və sevgi nəticəsində şairin həyat və yaradıcılığına, irsinin tədqiq və təbliğinə, əsərlərinin şərhinə həsr olunan yüzlərlə monoqrafiya, kitab, dərsliklər, qəzet və jurnal məqalələri ilə zənginləşir. Görkəmli füzulişünas alimlərimizdən akademik Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli" (1958), f.e.n. Ayaz Vəfalının "Füzuli öyrədir" (1977), f.e.d. Aida Qasımovanın "Füzuli yaradıcılığında Quran rəvayətləri" (1995), f.e.n. Vəcihə Feyzullazadənin "Füzulinin ömür yolu" (1995, 2005), "Füzuli xəlqiliyi" (1994), AMEA-nın müxbir üzvü Azadə Rüstəmovanın "Mütəfəkkir-Mövlana Füzuli" (1996) və "Məhəmməd Füzuli" (2005), akademik Nizami Cəfərovun "Füzulidən Vaqifə qədər" (1991), f.e.d., professor Musa Adilovun "Məhəmməd Füzulinin üslubu və poetik dili" (1996, 2020), f.e.d. Nəsib Cümşüdoğlunun "Füzulinin sənət və mərifət dünyası" (1997), f.ü.f.d. Leyli Əliyevanın "Füzuli və ingilis şərqşünaslığı" (1997), Ramiz Fasehin "Füzuli şerində təsəvvüfi qaynaqlar" (2000), f.e.d. Ataəmi Mirzəyevin "Füzulinin "Hədiqətüs-Süəda" əsəri orta əsrlər tərcümə abidəsi kimi" (2001), "Azərbaycan bədii tərcümə tarixi və Füzuli" (2009), akademik Möhsün Nağısoylunun "Füzulinin "Hədiqətus-süəda" əsəri" (2002), akademik Teymur Kərimlinin "Görünməyən Füzuli" (2003), f.e.d. Sabir Xəliloğlunun "Füzulinin poetikası" (1986), "Füzuli" (1996), "Füzuli ədəbi estetikası" (2004), 4 cilddə "Füzuli qəzəllərinin şərhi" (2004), "Füzuli sözü" (2005), f.e.d. Cənnət Nağıyevanın "Özbək ədəbiyyatında Füzuli ənənələri" (2005), AMEA-nın müxbir üzvü Azadə Rüstəmovanın "Məhəmməd Füzuli" (2005), f.e.d. Kamil Vəli Nərimanoğlunun "Mənim Füzulim" (2006), Hacı Amil Məlikovun "Füzuli şeiriyyatında islam əhli-beytinin və digər

din müqəddəslərinin tərənnümü" (2006), şair İsmayıl bəy Nakamın "Məcnun və Leyli" (2007), f.e.d. Mir Cəlalın "Füzuli sənətkarlığı" (2007, 2018), f.ü.f.d. Vərağa Almasovun "Füzuli "Leyli Məcnun"unun islami mahiyyəti" (2006), 4 cildlik "Peyğəmbər aşiqi Füzuli" (2007), f.ü.f.d Afaq Yusiflinin "Çağdaş poeziya və Füzuli irsi" (2008), Əsgər Şahinin 3 cilddə "Məhəmməd Füzuli qəzəllərinin irfani şərhi" (əsgi əlifbadan latın qrafikasına çevirən M.Ağamirzəyev) (2008, 2011), f.e.d. Şəfəq Əlibəylinin "Füzulinin farsca divanı linqvo-poetik özəlliklər" (2008), füzulişünas alim Hacı Ələmdar Mahirin "Mənim tanıdığım Füzuli" (2009), 3 cilddə "Füzuli qəzəllərinin şərhi"(2012), f.ü.f.d. Zəkulla Bayramlının "Füzuli və çağdaş ədəbi-nəzəri fikir" (2010), f.e.d. Jalə Əliyevanın "Dünyanın tanıdığı Füzuli" (2010), f.e.d. Nəzakət Məmmədlinin "Füzulinin "Leyli və Məcnun" əsərində təsəvvüf və onun bədii ifadə sistemi" (2011), f.e.d. Nəsib Göyüşovun "Füzuli: düşüncə və ruhun poetikası" (2011), f.e.d. Gülşən Əliyevanın 3 cilddə "Azərbaycan füzulişünaslığının qaynaqları" (2011), "Füzuli poetikası" (2015), f.ü.f.d. Xatirə Yusifova "Füzulinin türk "Divan"ının nəşri problemləri" (2012), Nobəri Qara Əliyevin "Füzuli qəzəllərinə təxmislər" (2012), f.ü.f.d. Ruhəngiz Cümşüdlünün "Füzulinin ərəbcə poetik irsi" (2013), akademik Rafael Hüseynovun "Yoxdan var" (2014), İhsan Fazlıoğlunun "Fuzuli ne demek istedi?" (2015), Sevinc Əliyevanın (Ağayeva) "Məhəmməd Füzulinin Azərbaycan türk Divanı leksikası" (2016), akademik Məmməd Cəfər Cəfərovun məqalələr məcmuəsi "Füzuli düşünür" (2019), akademik Kamal Abdullanın "Mənim Füzulim" (esseler 2019), f.ü.f.d. Aynurə Mahmudovanın "Füzuli ədəbi məktəbi (XVI-XVIII əsrlər)" (2019), Təbriz Qasımovun "Məhəmməd Füzulinin "Mətləul-etiqad" əsərinin şərhi" (2021), f.e.d. Samət Əlizadənin "Şah beytlər" (Füzuli "Divan"ına şərhlər)(2022), Elman Quliyevin "Türk halkları edebiyatı" (2023), Mahmud Allahmanlı "Klassiklər, yenə də klassiklər" (2023) nəşrləri Füzuli irsinin işıqlandırılması baxımından xüsusi əhəmiyyət kəsb edirlər.

2024-cü il də tarixə "Füzuli ili" kimi həkk olundu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün türk dünyasının, Azərbaycan ədəbiyyatı və mədəniyyətinin iftixarı Məhəmməd Füzulinin anadan olmasının 530 illik yubileyinin dövlət səviyyəsində geniş miqyasda qeyd olunmasını təmin edən 25 yanvar 2024-cü il tarixli sərəncam imzaladı. Bu sərəncama əsasən, şairin 530 illiyi ölkə miqyasında təntənəli şəkildə qeyd edildi. Yubiley tədbirləri çərçivəsində beynəlxalq elmi konfranslar, simpoziumlar və müxtəlif yubiley tədbirlər keçirilmiş, elm və mədəniyyət ocaqlarında sərgilər təşkil olunmuş, eyni zamanda şairin həyat və yaradıcılığını əks etdirən yeni nəşrlər, elmi və elmi-publisistik məqalələr işıq üzü görmüşdür.

Dahi mütəfəkkirin yubileyi ərəfəsində Fərid Hüseynin tərtibatçılığı ilə nəşr edilən "Heydər Əliyev və Məhəmmməd Füzuli: fərman və sərəncamlar, çıxışlar, məqalələr" (2024) toplusunda özündə Ümummilli lider Heydər Əliyevin dahi Füzuli ilə bağlı imzaladığı fərman və sərəncamlar, yubiley çıxışları yer almış, həmçinin Füzuli dühasının ədəbi-bədii irsinin təbliği və tədqiqinə göstərdiyi xidmətləri əks etdirən məqalələri buraya daxil edilmişdir.

Digər nəşrlərdən biri də Sona Xəyalın (Sonaxanım Hadiyeva) "Məhəmməd Füzuli – 530" əsəridir. Əsərdə müəllifin dahi şairlə bağlı məqalələr toplusu və mütəfəkkirin əsərlərinə həsr edilmiş xülasələr yer alır.

2024-cü ildə professor Lalə Əlizadə və dosent Əzizağa Nəcəfzadənin həmmüəllifliyi ilə "Məhəmməd Füzulinin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində tədrisinə dair" (2024) adlı dərs vəsaiti nəşr olunub. Kitabın elmi redaktoru və "Ön söz"ün müəllifi professor Mahirə Hüseynovadır. Kitab orta məktəblərdə tədris üçün nəzərdə tutulub.

Vasif Sadıqlının "Füzuli qəzəlləri" (İzahlar və şərhlər) (2024) adlı sayca yeddinci kitabı da şairin yubiley ərəfəsində çap olunan əsərlərdəndir. Müəlif Füzulinin Azərbaycan dilindəki "Divan" və "Leyli Məcnun" poemasındakı bir çox qəzəllərin müasir dilimizdə izahlı şərhini təqdim edir. Bu kitabların hər birində müəlliflər Füzulinin araşdırılmasına müasirlik çaları tətbiq etməyə çalışmışlar.

2024-cü ilin sentyabrında Astanada Füzuli yaradıcılığı mövzusunda şair, tərcüməçi *Fərid Hüseynin* tərtib etdiyi ədəbi-poetik "***Füzuli – 530 misra***" kitabının qazax dilində prezentasiyası da baş tutmuşdur.

***Füzuli İrsinə Həsr Olunmuş Elmi Nəşrlər: "Füzuli Kitabxanası" Seriyası***

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 15 noyabr 2024-cü il tarixli qərarı ilə şairin irsinə həsr olunmuş elmi araşdırmalar "Füzuli Kitabxanası" seriyası adı altında nəşr edilməyə başlamışdır. Bu nəşr Füzuli irsinin dərindən tədqiqinə töhfə verməyi hədəfləyir və hər bir cildin yeni elmi tədqiqatları əks etdirməsi nəzərdə tutulur. Füzulişünaslıq sektorunun tərtibatı ilə həyata keçirilən nəşrlər latın qrafikası ilə təqdim olunur.

Bu seriyada çap olunan monoqrafiyalar müəlliflərin ilk çap nüsxələri əsasında nəşr edilmişdir. Mir Cəlal Paşayev, Həmid Araslı, Məmməd Cəfər Cəfərovun nəşrə təqdim olunan əsərləri müxtəlif dövrlərdə, fərqli redaktələrlə çap olunduğu üçün nüsxələr arasında tekstoloji fərqlər mövcuddur.

"Füzuli kitabxanası" seriyası adı altında çap olunan əsərlərin **I cildi** Azərbaycan füzulişünaslığının ilk elmi araşdırması olan Mir Cəlal Paşayevin "Füzuli Sənətkarlığı" əsəridir. Bu əsər 1938-ci ildə Mir Cəlal Paşayevin müdafiə etdiyi namizədlik dissertasiyasının mövzusu olmuşdur. Əsər ilk dəfə 1940-cı ildə, sonra 1958-ci ildə akademik Həmid Araslının redaktorluğu ilə kitab şəklində nəşr olunmuşdur. "Füzuli ili" çərçivəsində təkrar nəşrə cəlb edilən bu əsər1958-ci ildəki nəşr əsasında hazırlanmışdır. Kitabın redaktoru akademik Həmid Araslı, ön sözün müəllifi akademik İsa Həbibbəyli və nəşrə hazırlayan filologiya elmləri doktoru Ataəmi Mirzəyevdir. Əsər 2024-cü ildə "Elm" nəşriyyatında çap olunmuşdur. Həcmi 324 səhifədir.

Seriyanın **II cildi** filologiya üzrə fəlsəfə doktoru Aynurə Mahmudovanın "Füzuli Ədəbi Məktəbi (XVI-XVIII əsrlər)" əsəridir. Bu monoqrafiyada ilk dəfə olaraq Azərbaycan ədəbiyyatında xüsusi yer tutan Füzuli ədəbi məktəbinin təşəkkül dövrü və inkişaf yolları araşdırılmış, ədəbiyyat tarixindəki nüfuzu müəyyənləşdirilmişdir. Əsərin elmi məsləhətçisi və ön sözün müəllifi akademik Teymur Kərimli, elmi redaktoru isə filologiya elmləri doktoru Ataəmi Mirzəyevdir.

Əsər 2019-cu ildə "Elm və Təhsil" nəşriyyatında 200 səhifə həcmində çap olunmuşdur.

Seriyanın **III cildi** görkəmli ədəbiyyatşünas alim, akademik Məmməd Cəfər Cəfərovun "Füzuli Düşünür" adlı məqalələr məcmuəsidir. Akademikin dahi söz ustası Məhəmməd Füzuli irsinə həsr etdiyi ədəbi-tənqidi məqalələrdən ibarət olan bu əsərdə Füzulinin dünyagörüşü və elmi-fəlsəfi fikirləri araşdırılmış, sevən və düşünən Füzuli vəhdətdə verilmişdir. Kitaba akademikin Füzuliyə həsr etdiyi daha üç məqalə daxil edilmişdir. Məqalələrdə şairin bədii-fəlsəfi görüşlərinə və füzulişünaslığın qarşısında duran vəzifələrə toxunulur. 160 səhifəni əhatə edən əsər 2019-cu ildə Məmməd Cəfər Cəfərovun 110 illik yubileyi münasibətilə "Elm və Təhsil" nəşriyyatında çap olunmuşdur.

Kitablar seriyasının **IV cildində** görkəmli akademik Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli" əsəri öz əksini tapmışdır. Dahi Füzulinin dövrü, mühiti, həyat və yaradıcılığına həsr olunmuş ilk fundamental tədqiqat əsəri olan bu nəşr ilk dəfə 1958-ci ildə çap olunmuşdur. Əsərdə Füzuli yaradıcılığı XVI əsr Azərbaycan ədəbiyyatı və Bağdad ədəbi mühiti fonunda tədqiq edilmiş, şairin yaradıcılığının Şərq ədəbiyyatına təsiri göstərilmişdir.

Əsərin elmi məsləhətçisi AMEA-nın müxbir üzvü Nüşabə Araslı, ön sözün müəllifi akademik İsa Həbibbəyli, tərtib edəni filologiya elmləri doktoru Ataəmi Mirzəyevdir. 352 səhifə həcmində olan əsər 2024-cü ildə "Elm" nəşriyyatında çap olunmuşdir.

**V cildə** tanınmış polyak şərqşünası Stanislava Plyaskovitska-Rımkeviçin "Məhəmməd Süleyman oğlu Füzuli (həyat və yaradıcılığının tədqiqi)" monoqrafiyası daxil edilmişdir. Şərqşünas alim əsərdə Məhəmməd Füzulinin dövrü, mühiti, ədəbi şəxsiyyəti, yaradıcılığı haqqında ətraflı

məlumat vermişdir. Əsərin sonunda Füzulinin "Bəngü-Badə" poemasının polyak dilində tərcüməsi təqdim olunur.

İlk dəfə Azərbaycan dilinə tərcümə edilərək çap olunan əsərin elmi məsləhətçisi və ön sözün müəllifi akademik İsa Həbibbəyli, tərtib edənlər filologiya elmləri doktoru, professor Gülər Abdullabəyova və filologiya elmləri doktoru Ataəmi Mirzəyevdir. Əsəri polyak dilindən filologiya elmləri doktoru, professor Gülər Abdullabəyova tərcümə etmişdir. Əsər 2024-cü ildə "Elm və təhsil" nəşriyyatında 228 səhifə həcmində çap olunmuşdur.

Füzuli kitabxanasının **VI cildi** filologiya üzrə fəlsəfə doktoru Mehriban Mövlamovanın "Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuli obrazı" əsəridir. Əsərdə müxtəlif dövrlər və müxtəlif janrlarda işlənmiş Məhəmməd Füzuli obrazı təhlil edilərək sistemləşdirilmişdir. Tədqiqata cəlb olunan əsərlərdə tarixi-müqayisəli metodla təhlillər aparılaraq Azərbaycan ədəbiyyatındakı Məhəmməd Füzuli obrazının öyrənilməsi, tarixi şəxsiyyət və bədii qəhrəman probleminin bir sıra məsələlərinin araşdırılmışdır.

Əsərin elmi redaktoru filologiya elmləri doktoru Ataəmi Mirzəyevdir. 210 səhifədən ibarət olan əsər 2024-cü ildə "Elm və təhsil" nəşriyyatında işıq üzü görmüşdür.

**VII cilddə** dahi şair Məhəmməd Füzulinin "Tərcümeyi-Hədisi-ərbəin" əsəri öz əksini tapmışdır. Görkəmli füzulişünas alim Ataəmi Mirzəyev bu əsəri ilk dəfə olaraq ideya-bədii, müqayisəli-tekstoloji, tərcümə, dil-üslub və sənətkarlıq xüsusiyyətləri baxımından tədqiqata cəlb etmişdir. Əsər ilk dəfə kompleks şəkildə tədqiq edilmiş, mövzu, tədqiq və nəşri tarixinə nəzər salınaraq mətnşünaslıq baxımından araşdırılmış, Əbdürrəhman Caminin əsəri ilə müqayisəli təhlillər aparılmışdır. 2024-cü ildə "Elm və təhsil" nəşriyyatında 180 səhifə həcmində çap olunan kitabın elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Səadət Şıxıyevadır.

"Füzuli kitabxanası" seriyasının **VIII cildində** Sevinc Ağayevanın "Məhəmməd Füzulinin anadilli divanının leksik tərkibi: Azərbaycan mənşəli arxaizmlər" monoqrafiyası öz əksini tapıb. Monoqrafiyada Füzulinin anadilli divanının leksik tərkibi poetik-üslubi cəhətdən linqvistik və üslubi linqvistik metodla araşdırılmışdır. Əsərin elmi redaktoru filologiya elmləri doktoru Ataəmi Mirzəyevdir. Kitab 2024-cü ildə "Elm və təhsil" nəşriyyatında 114 səhifə həcmində çap olunmuşdur.

"*Füzuli kitabxanası*" silsiləsindən olan **IX cild** filologiya elmləri doktoru *Fəridə Əzizovanın* "***Məhəmməd Füzuli: mütəfəkkir şairin fəlsəfi irsi"*** əsəridir. Ərəb dilində yazılan əsər ilk dəfə Fəridə Əzizova tərəfindən təhlil olunaraq çap edilmişdir. Əsər rus dilində nəşr edilmişdir. Akademik İsa Həbibbəyli ilk dəfə araşdırma mövzusu olan əsərin təhlili təşəbbüsünü yüksək dəyərləndirmişdir.

## Nəticə / *Conclusion*

Aparılan araşdırmaların nəticələri göstərir ki, müstəqillik dövrü Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna əhəmiyyət kəsb edən, türk dünyasının dahi söz ustadı Məhəmməd Füzuli irsinin tədqiqi və təbliği, eləcə də füzulişünaslığın inkişafı baxımından məhsuldar dövr olmuşdur.

Ötən 30 il ərzində ölkə başçıları tərəfindən Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarı olan dahi mütəfəkkirin 500 və 530 illik yubileylərinin dövlət səviyyəsində beynəlxalq miqyasda qeyd edilməsini təmin edən sərəncamların imzalanması şairin irsinə olan böyük sevgi və qayğının əyani sübutudur.

Bu illər ərzində Füzuli irsinin dili, ideyası, eşqi, dini, fəlsəfi baxışı, obrazı tədqiq və təhlil edilərək əlaqələndirmələr aparılmış, günümüzə təsiri və əhəmiyyəti vurğulanmışdır. Beynəlxalq aləmdə aparılan araşdırmalar, çap edilən monoqrafiya və məqalələr şairin dünya ədəbiyyatşünaslığında da nüfuzunun yüksək olduğunu göstərir.

Üç dildə – ərəb, fars, Azərbaycan dillərində təkrarsız divan əsərləri yazan, Azərbaycan ədəbi irsinin inkişafına misilsiz töhfələr bəxş edən dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli yaradıcılığının tədqiqi bütün dövrlərdə olduğu kimi, günümüzdə də öz aktuallığını qoruyub saxlayır. Yarandığı gündən öz zənginliyi ilə seçilən Füzuli irsi hələ ədəbiyyatşünaslıq elminə çox töhfələr bəxş edəcək, yeni tədqiqatçıları özünə cəlb edərək yeni füzulişünaslar yetişdirəcək.

Görkəmli füzulişünas M.Quluzadənin dediyi kimi, "Füzuli irsinin öyrənilməsi tarixi çox qədim olsa da, füzulişünaslıq elmi çox gəncdir".

**Ədəbiyyat / *References***


1. Abdullayeva, İlahə Əvəz qızı. Füzulinin "Leyli və Məcnun"əsərində ərəbizmlər [Mətn]: filologiya e.n.a.dər.a. üçün təq. ed. dis.:10.02.01/Bakı Dövlət Universiteti.- B., 2005.-175 s.
2. Abdullayeva, Gülər Sabir qızı. Şeyx Qalib yaradıcılığında Füzuli ənənələri [Mətn]: Filologiya [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 5717.01; 5716.01 /G.S.Abdullayeva. - Bakı: 2023. - 30, [1] s.
3. Ağayev, Ceyhun Şakir oğlu. Məhəmməd Füzulinin "Həqiqətüs-Süəda" əsərində iman və əqidə uğrunda mübarizə [Mətn] : fəls. e. üzrə fəls. d-ru a. dər. al. üçün təq. ed. dis.: 09.00.13 /C. Ş. Ağayev ; AMEA, M. Füzuli ad. Əlyazmaları İn-tu.- Bakı: 2012.- 129 s.:
4. Almasov, Vərağa Qənbər oğlu. Füzulinin yaradıcılığında dini-mənqəbəvi anlayışların yeri və bədii ifadə yolları: türkcə divan və "Leyli-Məcnun" məsnəvisi üzrə: filologiya elm. namiz. ... dis. avtoreferatı: 10.01.03 / V.Q.Almasov; elmi rəh. Q.Ə.Kəndili; Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı, 1994.- 30 s.
5. Araslı Həmid. Böyük Azərbaycan şairi Füzuli. Bakı: "Elm", 2024, -349 s.
6. Bayramlı Zəkulla. Füzuli yaradıcılığı və çağdaş ədəbi-nəzəri fikir", filol. e. n. a. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı: 10.01.03 / AzEA, Nizami ad. Ədəbiyyat İnstitutu. Bakı, 1994, 32 s.
7. Cabbarova, Şəfəq Xasay qızı. Məhəmməd Füzulinin türkdilli bədii əsərlərində semantik-üslubi vasitələr [Mətn]: filol. e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.: 10.02.01 /Ş. X. Cabbarova ; AMEA, Nəsimi ad. Dilçilik İn-tu.- Bakı: 2010.- 142 s.:
8. Cümşüdlü, Rühəngiz Aydın qızı. Füzulinin ərəbcə divanı: filol. elm. namiz. dis. avtoreferatı: 10.01.03, 10.01.02 / R.A.Cümşüdlü; elmi rəh. G.B.Baxşəliyeva; AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. – Bakı, 2006.- 26 s
9. Cəfərov Məmməd Cəfər. Füzuli düşünür. Bakı: Elm və təhsil., 2019, -82 s.
10. Qənimət oğlu, Siracəddin. Məhəmməd Füzuli yaradıcılığı və türk ədəbiyyatşünaslığı: 1940-1980 [Mətn]: filol. e. n. a. dər. al. üçün təq. ed. dis.: 10.01.03 ; 10.01.06 /Qənimət oğlu, Siracəddin ; AzEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: 1994.- 169 s.
11. Quluzadə Mirzağa. Füzuli lirikası. Bakı: AzSSR EA nəşriyyatı, 1965, 474 s.
12. Əliyeva, Gülşən Teymur qızı. Çağdaş Azərbaycan poeziyasında Füzuli ənənələri: 70-90-cı illər: filologiya elm. namiz. ... dis. avtoreferatı : 10.01.03 / G.T.Əliyeva; elmi rəh. R. B. Hüseynov; Y. H. Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti.- Bakı, 2000.- 23 s.
13. Əliyeva, Gülşən Teymur qızı. Azərbaycan füzulişünaslığının tarixi inkişaf mərhələləri: filologiya elm. dok. ... dis. avtoreferatı: 10.01.01 / G.T.Əliyeva; AMEA Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı, 2009.- 58 s.
14. Əliyeva Gülşən. *Azərbaycan füzulişünaslığının təşəkkülü*. Bakı, Çaşıoğlu, 2005, 190 səh.
15. Əliyeva, Jalə Fazil qızı. Füzulişünaslığın təşəkkülü və inkişaf meylləri [Mətn]: filol. e. n. a. dər. al. üçün təq. ed. dis.: 10.01.03 ; 10.01.06 /J.F.Əliyeva; M.Ə.Rəsulzadə ad. BDU.- Bakı: 1995.- 156 s.

16. Əliyeva, Sevinc Orucəli qızı. Füzulinin türkcə "Divan"ının dilinin leksikası [Mətn]: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: 10.02.01 /S.O.Əliyeva; AMEA, Nəsimi ad. Dilçilik İn-tu.- Bakı: 2012.,- 152 s.
17. Əlibəyli, Şəfəq Ənvər qızı. Füzulinin farsca divanının linqvo-poetik təhlili [Mətn]: filol. e. d-ru a. dər. al. üçün təq. ed. dis.: 10.02.08 /Ş.Ə.Əlibəyli; AMEA, akad. Z.M.Bünyadov ad. Şərqşünaslıq İn-tu.- Bakı: 2008.- 314 s.
18. Əliquliyeva, Lalə Həsaməddin qızı. Məhəmməd Hadi yaradıcılığında Füzuli ənənələri [Mətn] : filol. e. n. a. dər. al. üçün təq. ed. dis.:10.01.01 /L. H. Əliquluyeva; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: 2007.- 144 s.
19. Göyüşov, Nəsib Cümşüd oğlu. Füzulinin sənət və mərifət dünyası [Mətn]: filol. e. d-ru a. dər. al. üçün təq. ed. dis.:10.01.01 /N.G.Göyüşov; AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: 2007.- 327 s.
20. Hüseynova, Təranə Mirzə qızı. Mühazirə və Füzuli yaradıcılığında onun yeri: filologiya elm. namiz. ... dis. avtoreferatı: 10.01.08, 10.01.03 / T.M.Hüseynova; elmi rəh. Ə.M.Mirəhmədov; Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı, 1996.- 32 s
21. Mahmudova, Aynurə Vaqif qızı. Füzuli ədəbi məktəbinin təşəkkülü və erkən mərhələləri [Mətn] : filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: 5716.01 /A.V.Mahmudova; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: 2014.
22. Mahir H.Ə. Mənim tanıdığım Füzuli. Bakı: Nurlan, 2009, 269 s.
23. Məmmədova, Aynurə Əhmədağa qızı. Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərində fars mənşəli sözlər [Mətn]: filolologiya üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ol. dis.: 5706.01 /A. Ə. Məmmədova; AMEA, Məhəmməd Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: 2018.- 161 s. cədv.
24. Məmmədli Nəzakət. "Füzulinin "Leyli və Məcnun" əsərində təsəvvüf və onun bədii ifadə sistemi. Bakı: Elm və təhsil, 2011, 184 s.
25. Məmmədov, Elçin Hüseyn oğlu. XIX əsr Azərbaycan lirikasında Füzuli ənənələri: filologiya elm. namiz. dis. avtoreferatı: 10.01.01 / E.H.Məmmədov; elmi rəh. Y.V.Qarayev; AMEA Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı, 2007.- 20 s.
26. Məsimova, Lalə Ağalar qızı. Füzulidə və Şekspirdə eşq mövzusu [Mətn]: filol. e. n. a. dər. al. üçün təq. ed. dis.: 10.01.01; 10.01.03 /L.A.Məsimova; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: 2009.- 134 s.
27. Məmmədova, Lalə. Çağdaş Azərbaycan bədii nəsrində Füzuli təsirləri [Mətn]: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: /L.Məmmədova ; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: 2016.- 124 s.
28. Mir Cəlal "Füzuli sənətkarlığı", monoqrafiya III nəşri "Nurlan", 2007, 357 s.
29. Mirzəyev, Ataəmi Bala Baba oğlu. Azərbaycan bədii tərcümə tarixində Füzuli mərhələsi [Mətn] : filol. üzrə e. d-ru e. dər. al. üçün təq. ed. dis.: 10.01.01 /A.B.Mirzəyev; AMEA Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: 2012.- 293 s.: cədv.
30. Mövlamova, Mehriban Oqtay qızı. Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuli obrazı [Mətn] : Filologiya üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ol. dis. : 5716.01 /M. O. Mövlamova ; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dillər Un-ti.- Bakı: 2018.- 149 s.:
31. Mustafayeva, Nailə Balabəy qızı. XIX-XX yüzilliklərdə Məhəmməd Füzuli lirikası əsasında yazılmış təxmislər [Mətn]: filol. e. n. a. dər. al. üçün təq. ed. dis.: 10.01.01 /N.B.Mustafayev; AMEA, M. Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: 2007.- 140 s.
32. Nəcəfov, Əzizağa Bayram oğlu. Füzuli yaradıcılığında poetik fiqurlar: filologiya elm. namiz. ... dis. avtoreferatı: 10.01.01 / Ə.B.Nəcəfov; elmi rəh. T.H.Kərimov; AMEA Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı, 2006.- 18 s.

33. Rəfioğlu Səlim Rəfiq. Füzuli. Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası(kitablar seriyası), III cild.Bakı: Elm və təhsil, 2019.- 440 s.
34. Yusifli, Afaq Xəlil qızı. Füzuli irsi və 1920-60-cı illər Azərbaycan poeziyası: filologiya üzrə fəlsəfə dok. ... dis. avtoreferatı: 10.01.01 / A.X.Yusifli; elmi rəh. Ə.Q.Səfərli; AMEA Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı, 2010.- 26 s.
35. Yusifova, Xatirə Malik qızı. Füzulinin türk "Divan"ının nəşri problemləri (Bakı nəşrləri) [Mətn]: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis. /X.M.Yusifova ; AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: 2012. - 135 s.

## Научные публикации, посвященные наследию Физули в литературно-историческом процессе XX века

**Севиндж Пашаева**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: seva_111@yahoo.com

**Резюме.** Исследование наследия великого азербайджанского поэта и мыслителя Низами Гянджеви, внёсшего бесценный вклад в развитие литературного наследия Азербайджана, на всех этапах являлось одной из актуальных тем литературоведения. Проведение анализа наследия Физули, выделяющегося самобытным пером в классическом литературоведении, началось ещё в его период. Познав все науки, поэт сказал: «Поэзия без науки как стена без опоры, которая бывает ненадёжной». Научный подход к физуливедению, основанному на изучении тезкире, относят к концу XIX – началу XX в. Основоположником азербайджанского физуливедения советского периода является Мир Джалал Пашаев, а автором первой фундаментальной монографии о жизни и творчестве поэта академик Гамид Араслы. Но в XX веке в разгар своего правления советская идеология оказала давление и на развивающееся физуливедение.
Общенациональный лидер Гейдар Алиев, придавая особое значение сохранению азербайджанской государственности, истории и культуры после обретения нашей страной независимости, принял Указ о проведении на государственном уровне 500-летнего юбилея великого мыслителя, вследствие чего азербайджанское физуливедение вступило на новый этап, который является самым плодотворным в азербайджанском литературоведении. Именно в этот период исследование наследия поэта, выделяющегося среди классиков мировой литературы энциклопедическими знаниями, богатым творчеством, получило новое направление в более широком масштабе. В статье уделено внимание научным исследованиям о жизни и творчестве поэта и их публикациям.
**Ключевые слова:** Мохаммед Физули, поэт, тезкире, Год Физули, исследования